

# "Bizim mədəniyyətimiz milli mənsubiyyətimizi qorumaq üçün başlıca rol oynayıb"
## İlham ƏLİYEV

# Mədəniyyət sahəsində əlamətdar və unudulmaz olan bir il

**Mədəniyyətimizin inkişafı, təbliği dövlətimizin böyük önəm verdiyi sahələrdən biridir. Prezident İlham Əliyevin xüsusi diqqət və qayğısı sayəsində son bir il ərzində də bu sahənin tərəqqisi, tanıdılması istiqamətində mühüm işlər görülüb. Dövlət başçısının imzaladığı sərəncamlar, çoxsaylı və əhəmiyyətli tədbirlərin həyata keçirilməsi söyləməyə əsas verir ki, ötən bir il mədəniyyət sahəsində əlamətdar və unudulmaz olub.**

### Zəngin mədəniyyətimiz - qürur mənbəyimiz

Prezident İlham Əliyevin vurğuladığı kimi, Azərbaycanın zəngin və təkrarolunmaz mədəniyyəti bizim qürur mənbəyimizdir: "Biz öz mədəniyyətimizi, mədəni irsimizi qorumalıyıq. Əsrlər boyu xalqımız öz mədəniyyətini qoruyub və bu, imkan verib ki, biz xalq kimi, millət kimi milli-mənəvi dəyərlərimizi, milli mənsubiyyətimizi qoruya bilək. Uzun illər ərzində Azərbaycan müstəqillikdən məhrum idi, xalqımız başqa dövlətlərin tərkibində yaşayırdı. Buna baxmayaraq, xalqımızın iradəsi, milli köklərə bağlılığı imkan vermədi ki, xalqımız assimilyasiyaya uğrasın. Bizim mədəniyyətimiz milli mənsubiyyətimizi qorumaq üçün başlıca rol oynayıb".

Azərbaycan ötən bir ildə də mədəniyyət sahəsində mühüm tədbirlərə evsahibliyi etdi. Silsilə beynəlxalq tədbirlər - "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalı, "Muğam Dünyası" Beynəlxalq Musiqi Festivalı, "Qəbələ Beynəlxalq Musiqi Festivalı", Bakı Beynəlxalq Caz Festivalı və digər tədbirlər uğurla reallaşdı. Həmin tədbirlər dünyanın müxtəlif ölkələrindən olan sənətkarları bir araya gətirdi.

Azərbaycanın qədim mədəniyyətinin və müasir incəsənətinin beynəlxalq ictimaiyyətə tanıdılmasında UNESCO-nun himayəsi altında təşkil olunan tədbirlərin, "İslam mədəniyyəti paytaxtı" layihəsi çərçivəsində keçirilən proqramların da əhəmiyyəti vurğulanmalıdır.

Ötən bir ildə Azərbaycanın mədəniyyət paytaxtı Şuşada bir sıra unudulmaz tədbirlər düzənləndi. Xatırladaq ki, 2023-cü il sentyabrın 25-də Qətərin paytaxtı Dohada keçirilən İslam Dünyası Mədəniyyət Nazirlərinin 12-ci konfransında bu şəhər 2024-cü il üçün "İslam dünyasının mədəniyyət paytaxtı" elan edilmişdi. Prezident İlham Əliyev 2023-cü il noyabrın 21-də Şuşa şəhərinin 2024-cü il üçün "İslam dünyasının mədəniyyət paytaxtı" elan edilməsi ilə bağlı tədbirlər haqqında sərəncam imzaladı.

Şuşanın Cıdır düzündə 2024-cü il mayın 11-də VII "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalının və "Şuşa - İslam dünyasının mədəniyyət paytaxtı 2024" ilinin açılış mərasimi oldu. Mərasimdə çıxış edən dövlət başçısı İlham Əliyev ölkəmizdə bir çox beynəlxalq tədbirin, musiqi festivallarının, mədəni tədbirlərin keçirildiyini qeyd etdi: "Təbii ki, Şuşa şəhərinin islam dünyasının mədəniyyət paytaxtı olması bizə əlavə imkan verəcək ki, öz mədəniyyətimizi həm müsəlman ölkələrinin ictimaiyyətinə, həm də dünya ictimaiyyətinə çatdıraq".

İlboyu islam dünyasının mədəniyyət paytaxtı Şuşada əhəmiyyətli tədbirlər təşkil edildi. İslam Dünyasının Mədəniyyət Forumu çərçivəsində Şuşada İslam Əməkdaşlığı Təşkilatının mədəni irsin mühafizəsinə həsr olunmuş beynəlxalq konfransı, "İslam dünyasının itirilməkdə olan qeyri-maddi mədəni irs nümunələri" mövzusunda "dəyirmi masa", sərgi və digər təqdimatlar keçirildi.

Türkdilli dövlətlərdən olan uşaqlar arasında dostluq tellərini möhkəmləndirmək, onlara milli kimliklərini, mədəni irslərini tanıtmaq imkanı yaratmaq, həmçinin Şuşanın əsrarəngiz təbiətini və mədəni əhəmiyyətini beynəlxalq ictimaiyyətə çatdırmaq məqsədilə iyunun 1-də "Şuşa türk dövlətləri birliyinin mədəniyyət incisidir" adlı beynəlxalq uşaq yaradıcılıq festivalı təşkil olundu. Bu möhtəşəm festivalda Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Macarıstandan 250-yə yaxın məktəbli iştirak etdi.

Azərbaycanın qədim sənət və mədəniyyət mərkəzlərindən olan Şəkidə iyul ayında növbəti dəfə düzənlənən Şəki "İpək Yolu" XIII Beynəlxalq Musiqi Festivalı yenə də musiqi bayramına çevrildi. Festivalda Azərbaycanın və bir sıra xarici ölkələrin tanınmış musiqi kollektivləri və istedadlı musiqiçiləri iştirak etdilər.

Ermənistanın otuz ilə yaxın işğal altında saxladığı ərazilərdə həyata keçirdiyi vandallıq Qarabağda və Şərqi Zəngəzurda tarixi, milli-mədəni irsimizə ağır zərbə vurdu. Tariximizin, mədəniyyətimizin nişanələri olan abidələrimiz, muzeylərimiz, kitabxanalarımız, həmçinin müqəddəs ziyarətgahlarımız, məscidlərimiz işğalçı, vandal ermənilər tərəfindən uçurulub dağıdıldı, məhv edildi. 2020-ci ildə İkinci Qarabağ müharibəsində qazandığımız Böyük Zəfərdən sonra dövlətimizin başçısı işğaldan azad olunmuş ərazilərdə quruculuq, tikinti, bərpa işlərinin həyata keçirilməsi üçün sərəncam verdi. Və bu istiqamətdə geniş, əhatəli işlər görülməyə başlandı. İşğaldan azad edilmiş ərazilərimizdə reallaşdırılan geniş tikinti-bərpa işləri sırasında tarixi, mədəni, dini abidələrin bərpası da əhəmiyyətli yer tutur. Qeyd edək ki, keçən bir il Qarabağ və Şərqi Zəngəzurda tarixi-mədəni irsimizin bərpası istiqamətində reallaşan mühüm işlərlə də yadda qaldı. 2024-cü ilin sentyabrında Şuşada Azərbaycanın dahi bəstəkarı Üzeyir Hacıbəylinin ev-muzeyinin bərpadan sonra açılışı oldu. Dövlət başçısı açılış mərasimində iştirak etdi.

Yerli və xarici mütəxəssislərin iştirakı ilə restavrasiyası və arxeoloji tədqiqatı aparılmış Ağdam İmarət Kompleksinin açılış mərasimi də sentyabrda keçirildi. Açılışda iştirak edən Prezident İlham Əliyev kompleksdə yaradılan şəraitlə tanış oldu, düşmən tərəfindən məhv edilən tarixi çinarların yerində ağac əkdi.

Ötən ilin dekabrında milli peşəkar teatrın yaranmasının 145 illiyinə həsr edilən IV Şəki Beynəlxalq Teatr Festivalı təşkil olundu. Festivalda respublikamızın teatrları ilə yanaşı, Qazaxıstan, Özbəkistan və İrandan teatr kollektivləri də iştirak etdilər.

### Mədəniyyət və incəsənət xadimlərinə yüksək diqqət və qayğı

Prezident İlham Əliyevin 2024-cü ilin mayında imzaladığı "İncəsənət xadimlərinə Azərbaycan Respublikası Prezidentinin mükafatlarının verilməsi haqqında" sərəncama əsasən, səhnə fəaliyyəti ilə bağlı bir qrup incəsənət xadimi Azərbaycan Respublikası Prezidentinin mükafatlarına layiq görüldü.

Dövlət başçısının həmin tarixdə imzaladığı başqa bir sənədə - "Azərbaycan mədəniyyət xadimlərinə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında" sərəncama uyğun olaraq Azərbaycan mədəniyyətinin inkişafında xidmətlərinə görə Ömər Eldarov, Fərhad İsrafilov, Sevda Məmmədəliyeva, Laləzar Mustafayeva və başqalarına Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verildi.

Prezident İlham Əliyevin sərəncamları ilə Azərbaycan Respublikasının ictimai-siyasi və mədəni həyatında uzunmüddətli səmərəli fəaliyyətinə görə Polad Bülbüloğlu 1-ci dərəcəli "Vətənə xidmətə görə", Azərbaycanda ədəbiyyatşünaslıq elminin inkişafında böyük xidmətlərinə və uzunmüddətli səmərəli ictimai-siyasi fəaliyyətinə görə Rafael Hüseynov "Şərəf" ordenləri ilə təltif edildilər.

Keçən bir il ərzində dövlət başçısı İlham Əliyevin sərəncamları ilə görkəmli Azərbaycan bəstəkarı, tanınmış dirijor və pedaqoq, Dövlət mükafatı laureatı, Xalq artisti Süleyman Ələsgərovun və Azərbaycanın Xalq şairi, ictimai xadim, Dövlət mükafatları laureatı Nəbi Xəzrinin (Nəbi Ələkbər oğlu Babayevin) 100 illik yubileyləri təntənəli tədbirlərlə qeyd olundu.

2025-ci il fevralın 3-də Prezident İlham Əliyev "Üzeyir Hacıbəylinin 140 illiyinin qeyd edilməsi haqqında" sərəncam imzaladı. Sərəncamda qeyd olunur ki, Üzeyir bəy Hacıbəyli çoxşaxəli yaradıcılığı ilə Azərbaycan mədəniyyəti tarixində silinməz iz qoymuş qüdrətli şəxsiyyətlərdəndir: "Azərbaycan bəstəkarlıq məktəbinin banisi olan Üzeyir Hacıbəyli novator sənətkar kimi milli musiqi xəzinəsini unikal forma və janrlarla zənginləşdirmişdir. O, Şərqin və Qərbin musiqi nailiyyətlərinin dərin vəhdətində dünya musiqisinin qızıl fondunda fəxri yer tutan nadir sənət inciləri meydana gətirmiş, Azərbaycan mədəniyyətinə beynəlxalq miqyasda geniş şöhrət qazandırmışdır. Üzeyir Hacıbəyli eyni zamanda parlaq bədii dühası sayəsində Azərbaycan dramaturgiyasına dəyərli töhfələr vermiş, alovlu publisistikası ilə mətbuat salnaməsinə yeni səhifələr yazmışdır. Onun azərbaycançılıq məfkurəsi ilə yoğrulmuş dolğun ictimai-siyasi fəaliyyəti əsl vətənpərvərlik nümunəsidir".

Mədəniyyət sahəsində bir il ərzində həyata keçirilmiş işləri saymaqla bitmir. Dövlət başçısının bu sahə ilə bağlı verdiyi hər bir qərar, sərəncam Azərbaycan mədəniyyətinin inkişafına, təbliğinə yol açan növbəti uğurdur.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

Azərbaycan.- 2025.- 14 fevral (№ 33).- S.13.